***AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ***

# Q Ə R A R

**№ 2/11**

**Bakı şəhəri** **“ 23 ” yanvar 2013-cü il**

## “Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi” haqqında

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 9.6-cı və 14.4-cü bəndlərinin icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi

**QƏRARA ALIR:**

1. Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi tərəfindən hazırlanmış “Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi” təsdiq edilsin (əlavə olunur).

2. Qərar qəbul edildiyi gündən üç gün keçənədək Dövlət Statistika Komitəsi tərəfindən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilsin.

3. Göstərilən kompleks statistik göstəricilər sisteminin təsdiqi ilə əlaqədar olaraq Dövlət Statistika Komitəsinin 2012-ci il 31 iyul tarixli 62/11 №-li qərarı ilə təsdiq edilmiş "Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi" ləğv edilsin.

4. Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi (R.Bayramov) "Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi"nin Ekologiya və Təbii Sərvətlər Nazirliyinə çatdırılmasını təmin etsin.

5. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi şöbəsinə (A.Mansurov) həvalə olunsun.

**Sədr** **Arif Vəliyev**

**"Təsdiq edilmişdir"**

Azərbaycan Respublikası

Dövlət Statistika Komitəsi

**Qərar № 2/11**

"23" yanvar 2013-cü il

**Sədr**

____________________

**A.Vəliyev**

# GİRİŞ

Meşələr təsərrüfat məqsədilə oduncaq materialı və yabanı bitki məhsulları verməklə yanaşı, ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunub saxlanılmasında, vəhşi heyvan və quşların yaşayış məskəni olmaqla onların törəyib çoxalmasında, torpağın eroziyasının qarşısının alınmasında, havanın oksigenlə zənginləşdirilməsində, su dövranında, xüsusilə bulaq və çayların su ilə təminatında və s. mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən meşə resurslarından səmərəli istifadə edilməsi, onların kompleks şəkildə mənimsənilməsi, bərpası, mühafizəsi, onlara qulluq edilməsi dövrümüzün ən aktual məsələlərindəndir.

Meşələri xarakterizə edən dolğun, operativ statistik məlumatların hazırlanaraq istifadəçilərə təqdim edilməsi meşə resurslarından istifadəyə səmərəli nəzarət imkanları yaradır.

Meşə təsərrüfatı statistikası meşələrin mövcudluğunu, vəziyyətini, istifadəsini, bərpasını, konkret məkan və zaman şəraitində onlara xidmət üzrə tədbirləri, eləcə də meşə təsərrüfatının aparılması üçün əmək, material, maliyyə ehtiyatlarından istifadəni əks etdirən statistika sahəsidir.

"Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi"ndə ayrı-ayrı kateqoriyalar üzrə meşə fondlarını, meşələrin vəziyyətini, qorunmasını, təkrar istehsalını, inkişaf meyllərini xarakterizə edən göstəricilər öz əksini tapmışdır.

Göstəricilər sistemi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunmuş rəsmi statistika hesabatlarına əsaslanır və onun tətbiqi həmin hesabatlar vasitəsilə həyata keçirilir.

## Metodoloji izahlar

***Meşə*** - bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən, torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdətidir.

***Meşə fondu sahələri*** — meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələridir.

Azərbaycan Respublikası ərazisindəki bütün meşələr, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondunun torpaqları (meşə və qeyri-meşə torpaqları) Azərbaycan Respublikasının**meşə fondunu** təşkil edir.

***Meşə torpaqlarına*** meşə bitkiləri ilə örtülü olan torpaqlar və bu bitkilərlə örtülü olmayan, lakin meşələrin bərpası üçün nəzərdə tutulmuş torpaqlar (meşələşməmiş qırma sahələri, yanğın yerləri, seyrəkliklər, talalar, qurumuş ağaclıqlar, tinglik sahələri, çətiri birləşməmiş meşə əkinləri və digərləri) aid edilir.

***Qeyri-meşə torpaqlarına*** meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulmuş torpaqlar (kənd təsərrüfatı torpaqları, meşə mərzləri, yollar altında olan torpaqlar və digər torpaqlar), habelə meşə fondunun sərhədləri daxilində yerləşən sair torpaqlar (bataqlıqlar, daşlıqlar, qayalıqlar yerləşən və istifadə üçün əlverişsiz başqa torpaq sahələri) aid edilir.

**Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi**

| Sıra nömrəsi | Göstəricilərin adı | Ölçü vahidi | Dövrilik | İnformasiya mənbəyi | Məhsul növlərinin təsnifatı üzrə kodu | İşlənib hazırlanma proqramı |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. | Meşələrin bərpası, meşə əkini və səpinlərində xidmət və suvarma işləri, torpaq hazırlığı, əkin materiallarının yetişdirilməsi, toxum tədarükü | | rüblük | 1-mt nömrəli"Meşəbərpa tədbirlərinin aparılması haqqında" hesabat | | Ölkə üzrə |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.1. | Meşə fondu torpaqlarında meşə bərpa tədbirləri | ha | -//- | -//- | 02101100 | -//- |
| 1.2. | Meşə əkini, səpini | -//- | -//- | -//- | -//- | -//- |
| 1.3. | ondan səpin üsulu ilə | -//- | -//- | -//- | -//- | -//- |
| 1.4. | Az qiymətli və aşağı məhsuldar meşələrin rekonstruksiyası | -//- | -//- | -//- | -//- | -//- |
| 1.5. | Tezböyüyən cinslərdən ibarət məqsədyönlü plantasiyaların salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 1.6. | Mexanikləşdirilmiş üsulla əkilmişdir | -//- | -//- | -//- | -//- | -//- |
| 1.7. | Meşənin təbii bərpasına kömək tədbirləri | -//- | -//- | -//- | -//- | -//- |
| 1.8. | ondan yeniyetmələrin qorunması üsulu ilə | -//- | -//- | -//- | -//- | -//- |
| 1.9. | Meşə fondu torpaqlarında aparılmış meşə meliorasiya tədbirləri | -//- | -//- | -//- | -//- | -//- |
| 1.10. | ondan yarğanlarda, qobularda, qumluqlarda və digər torpaqlarda eroziyaya qarşı aparılmış meşə meliorativ tədbirlər | -//- | -//- | -//- | -//- | -//- |
| 1.11. | Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinə xidmət | -//- | -//- | -//- | -//- | -//- |
| 1.12. | ondan mexaniki üsulla | -//- | -//- | -//- | -//- | -//- |
| 1.13. | Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinin suvarılması | -//- | -//- | -//- | -//- | -//- |
| 1.14. | Tinglik sahəsinin suvarılması | -//- | -//- | -//- | -//- | -//- |
| 1.15. | Tinglik sahəsində aparılan xidmət | -//- | -//- | -//- | -//- | -//- |
| 1.16. | Tinglik sahəsində herbisidlərin tətbiqi | -//- | -//- | -//- | -//- | -//- |
| 1.17. | Səpin şöbəsində ağac və kol cinslərinin səpilən | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | toxumlar | | | | | |
| 1.18. | Böyütmə şöbələrində əkilən toxmacarlar | -//- | -//- | -//- | 02102000 | -//- |
| 1.19. | ondan iynəyarpaqlı cinslər | -//- | -//- | -//- | -//- | -//- |
| 1.20. | Çilik köklәndirmə şöbələrində basdırılmış çiliklər | -//- | -//- | -//- | -//- | -//- |
| 1.21. | Meşə fondu torpaqlarında torpaq hazırlığı | ha | rüblük | 1-mt nömrəli “Meşəbərpa tədbirlərinin aparılması haqqında” hesabat | 02102000 | Ölkə üzrə |
| 1.22. | ondan mexaniki üsulla | -//- | -//- | -//- | -//- | -//- |
| 1.23. | Növbəti il üçün torpaq hazırlığı | -//- | -//- | -//- | -//- | -//- |
| 1.24. | ondan mexaniki üsulla | | | | | |
| 1.25. | Ağac və kol cinslərinin toxumlarının tədarükü | -//- | -//- | -//- | 02101200 | -//- |
| 1.26. 1.27. | o cümlədən: a) iynəyarpaqlılar | -//- | -//- | -//- | -//- | -//- |
| 1.28. | ondan: – eldar şamı toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.29. | – adi şam toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.30. | – sərv toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.31. | – digər iynəyarpaqlıların toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.32. | b) enliyarpaqlı ağacların | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | toxumlarının | | | | | |
| 1.33. | ondan:<br><br>- palıd toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.34. | - qozmeyvəli ağacların toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 1.35. | - digər enliyarpaqlı ağac və kol cinslərinin toxumu | -//- | -//- | -//- | -//- | -//- |
| 2. | Meşə fondundan kənar torpaqlarda meşə əkini və səpini | -//- | -//- | -//- | | -//- |
| 2.1. | Meşə fondundan kənar torpaqlarda meşə salma və meşə meliorasiya tədbirləri | -//- | -//- | -//- | 02101100 | -//- |
| 2.2. | o cümlədən:<br><br>avtomobil və dəmir yollarının kənarlarında qoruyucu meşə zolaqlarının salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.3. | magistral su kanallarının və iri su hövzələrinin ətraflarında qoruyucu meşə zolaqlarının salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.4. | qobu, dərə, yarğan və digər ərazilərdə eroziyaya qarşı meşə meliorasiya tədbirləri | -//- | -//- | -//- | -//- | -//- |
| 2.5. | qumluqların bərkidilməsi məqsədilə qoruyucu meşə zolaqlarının salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.6. | qış otlaqlarında qoruyucu meşə zolaqlarının salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.7. | tarlaqoruyucu meşə zolaqlarının salınması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.8. | meşə fondundan kənar | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | torpaqlarda meşə əkini və səpinlərinə xidmət | | | | | |
| 2.9. | əkin və səpinlərin suvarılması | -//- | -//- | -//- | -//- | -//- |
| 2.10. | meşə fondundan kənar torpaqlarda torpaq hazırlığı | -//- | -//- | -//- | -//- | -//- |
| 3. | Cavan ağaclıqların yetişdirilib meşə ilə örtülü sahələrə və qiymətli meşə və ağaclıqlar kateqoriyasına keçirilməsi, toxum tədarükü | ha | rüblük | 1-mt nömrəli "Meşəbərpa tədbirlərinin aparılması haqqında" hesabat | | Ölkə üzrə |
| 3.1. | Meşə fondunda cavan ağaclıqların yetişdirilib meşə ilə örtülü sahələrə və qiymətli meşə və ağaclıqlar kateqoriyasına keçirilməsi | -//- | -//- | -//- | 02101100 | -//- |
| | o cümlədən meşə əkini və səpini üsulu ilə yaradılması hesabına | -//- | -//- | -//- | -//- | -//- |
| 3.2. | Qeyri meşə fondu torpaqlarında meşə meliorasiya tədbirləri aparılmış ərazilərin torpaq istifadəçilərinə təhvil verilməsi | -//- | -//- | -//- | -//- | -//- |
| 3.3. | Meşə toxumçuluq sahələrindən və plantasiyalarından toxum tədarükü | kq | -//- | -//- | 02101200 | -//- |
| | o cümlədən: | | | | | |
| 3.4. | - iynəyarpaqlı ağaclar | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3.5. | - palıd | -//- | -//- | -//- | -//- | -//- |
| 3.6. | - qozmeyvəlilər | -//- | -//- | -//- | -//- | -//- |
| 4. | Toxum tədarükü və qalığı | -//- | -//- | -//- | | -//- |
| 4.1. | Toxumlar | -//- | -//- | -//- | -//- | -//- |
| 4.2. | o cümlədən: | -//- | -//- | -//- | -//- | -//- |
| | - eldar şamı | | | | | |
| 4.3. | - sərv | -//- | -//- | -//- | -//- | -//- |
| | | -//- | -//- | -//- | -//- | -//- |
| 4.4. | - adi şam | | | | | |
| 4.5. | - qozmeyvəlilər | -//- | -//- | -//- | -//- | -//- |
| 4.6. | - palıd | -//- | -//- | -//- | -//- | -//- |
| 4.7. | - tumlu meyvəlilər | -//- | -//- | -//- | -//- | -//- |
| 4.8. | - çəyirdəkli meyvəlilər | -//- | -//- | -//- | -//- | -//- |
| 4.9. | - digərləri (iynəyarpaqlı, enliyarpaqlı ağac toxumları və kol cinslərinin toxumu) | -//- | -//- | -//- | -//- | -//- |
| II. | Meşə (oduncaq) buraxılışı, meşəyə xidmət tədbirləri və meşədən əlavə istifadə | | illik | 3-mt nömrəli“Meşə (oduncaq) buraxılışı, meşəyə xidmət tədbirləri və meşədən əlavə istifadə haqqında” hesabat | | Ölkə üzrə |
| 1. | Meşələrin tör-töküntüdən təmizlənməsi, sanitariya qırmaları (sahə, ağacların həcmi, onlardan alınan yararlı oduncaq) | | -//- | -//- | | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.1. | Meşəyə xidmət tədbirləri və sanitariya qırmaları o cümlədən: | ha, $m^3$ | -//- | -//- | 02401000 | -//- |
| 1.2. | işıqlandırma və təmizləmə qırmaları | -//- | -//- | -//- | -//- | -//- |
| 1.3. | seyrəltmə qırmaları | -//- | -//- | -//- | -//- | -//- |
| 1.4. | keçid qırmaları | -//- | -//- | -//- | -//- | -//- |
| 1.5. | seçmə sanitariya qırmaları | -//- | -//- | -//- | -//- | -//- |
| 1.6. | başdan–başa sanitariya qırmaları | ha, $m^3$ | illik | 3-mt nömrəli"Meşə (oduncaq) buraxılışı, meşəyə xidmət tədbirləri və meşədən əlavə istifadə haqqında" hesabat | 02401000 | Ölkə üzrə |
| 1.7. | başdan–başa plantasiya qırmaları | -//- | -//- | -//- | -//- | -//- |
| 1.8 | ondan akasiya və qovaq plantasiyalarında | -//- | -//- | -//- | -//- | -//- |
| 1.9 | Yenidənəkmə qırmaları (rekonstruksiya) | -//- | -//- | -//- | -//- | -//- |
| 1.10. | ondan azqiymətli cinslərin rekonstruksiyası | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1.11. | Sair qırmalar | -//- | -//- | -//- | -//- | -//- |
| 1.12. | Meşələrin tör-töküntüdən təmizlənməsi | -//- | -//- | -//- | -//- | -//- |
| 2. | Təsərrüfat əhəmiyyətli yollar və gələn il üçün qırma sahələri ayrılmışdır | | -//- | -//- | | -//- |
| 2.1. | Təsərrüfat əhəmiyyətli yol çəkilmişdir | km | -//- | -//- | x | -//- |
| 2.2. | Oduncağın sürütlənməsi | $m^3$ | -//- | -//- | x | -//- |
| 2.3. | Gələn il üçün qırma sahələrinin ayrılması | ha | -//- | -//- | x | -//- |
| 3. | Meşə tədarükçüləri tərəfindən oduncaq buraxılışı qaydalarının pozulması | | -//- | -//- | | -//- |
| 3.1. | Tərtib olunan yoxlama aktlarının sayı | ədəd | -//- | -//- | x | -//- |
| 3.2. | o cümlədən müəyyən edilmiş pozuntular | -//- | -//- | -//- | x | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3.3. | Meşənin icazəsiz qırılması | $m^3$ | -//- | -//- | x | -//- |
| 3.4. | Bütün pozuntu növləri üzrə alınmış cərimə | manat | -//- | -//- | x | -//- |
| 3.5. | Vəzifəli şəxslərə inzibati cərimə hesablanması hadisələrinin sayı | ədəd | -//- | -//- | x | -//- |
| 3.6. | Vəzifəli şəxslərə hesablanmış inzibati cərimənin məbləği | manat | -//- | -//- | x | -//- |
| 4. | Meşəqırma sahələrində oduncaq qalığı və sahələrin qırıntı qalıqlarından təmizlənməsi | | -//- | -//- | | -//- |
| 4.1. | İlin əvvəlinə qırma sahələrində olan: Hazır oduncaq | $m^3$ | -//- | -//- | x | -//- |
| 4.2. | o cümlədən işlik oduncaq | -//- | -//- | -//- | x | -//- |
| 4.3. | Köküüstə ağacın ümumi həcmi | -//- | -//- | -//- | x | -//- |
| 4.4. | ondan yararlı | -//- | -//- | -//- | x | -//- |
| 4.5. | Təmizlənməli olan qırma sahələri | ha | -//- | -//- | x | -//- |
| 4.6. | o cümlədən təmizlənmişdir | -//- | -//- | -//- | x | -//- |
| 4.7. | Meşə ilə örtülü sahə | min ha | illik | 3-mt nömrəli“Meşə (oduncaq) buraxılışı, meşəyə xidmət tədbirləri və meşədən əlavə istifadə | x | Ölkə üzrə |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | haqqında" hesabat | | |
| 4.8. | o cümlədən əsas ağac cinsləri üzrə: iynəyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.9. | bərkyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.10. | yumşaqyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.11. | sair ağac və kol cinsləri | -//- | -//- | -//- | x | -//- |
| 4.12 | Kökü üstə olan ümumi ağac ehtiyatı | min $m^3$ | -//- | -//- | x | -//- |
| 4.13. | o cümlədən əsas ağac cinsləri üzrə: iynəyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.14. | bərkyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.15. | yumşaqyarpaqlılar | -//- | -//- | -//- | x | -//- |
| 4.16. | sair ağac və kol cinsləri | -//- | -//- | -//- | x | -//- |
| III. | Meşə fondunda və başqa ərazilərdə baş vermiş meşə yanğınları | | illik | 5-mt nömrəli "Meşə fondunda və başqa ərazilərdə baş vermiş meşə yanğınları haqqında" hesabat | | Ölkə üzrə |
| 1.1. | Yanğının əhatə etdiyi sahə | ha | -//- | -//- | x | -//- |
| 1.2. | o cümlədən meşə ilə örtülü sahələr | -//- | -//- | -//- | x | -//- |
| 1.3. | Meşə (ağac-kol) olmayan açıq sahələr | -//- | -//- | -//- | x | -//- |
| | Ərazinin xüsusiyyətləri: | -//- | -//- | -//- | x | -//- |
| 1.4. | dağlıq | | | | | |
| 1.5. | dağətəyi | | | | | |
| 1.6. | düzən | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2. | Yanğının əmələ gəlməsi səbəbləri | | | | | |
| 2.1. | Baş vermiş bütün yanğınlar | ədəd | -//- | -//- | x | -//- |
| | o cümlədən: | | | | | |
| 2.2. | kənd təsərrüfatı məqsədilə yandırılmış meşə (ağac-kol) sahəsi | -//- | -//- | -//- | x | -//- |
| 2.3. | meşə tədarükçülərinin təqsirindən | -//- | -//- | -//- | x | -//- |
| 2.4. | ekspedisiyaların təqsirindən | -//- | -//- | -//- | x | -//- |
| 2.5. | digər müəssisə və təşkilatların təqsirindən | -//- | -//- | -//- | x | -//- |
| 2.6. | əhalinin təqsirindən | -//- | -//- | -//- | x | -//- |
| 2.7. | ildırım çaxmalarından | -//- | -//- | -//- | x | -//- |
| 2.8. | naməlum səbəbdən | -//- | -//- | -//- | x | -//- |
| 3. | Yanğınlardan dəyən ümumi zərər (həcm və məbləğ) | $m^{3}$, manat | -//- | -//- | x | -//- |
| | o cümlədən: | | | | | |
| | kökü üstə meşə (ağac- | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3.1. | kol) | -//- | -//- | -//- | x | -//- |
| 3.2. | tədarük olunmuş meşə məhsulları | -//- | -//- | -//- | x | -//- |
| 3.3. | bina, avadanlıq və digər əmlak | -//- | -//- | -//- | x | -//- |
| 3.4. | Meşə bərpası üzrə işlərin dəyəri | manat | illik | 5-mt nömrəli "Meşə fondunda və başqa ərazilərdə baş vermiş meşə yanğınları haqqında" hesabat | x | Ölkə üzrə |
| 3.5. | Ərazinin təmizlənməsi işlərinin dəyəri | -//- | -//- | -//- | x | -//- |
| 3.6. | Yanğınların söndürülməsi xərcləri | -//- | -//- | -//- | x | -//- |
| 4. | Meşələrdə (ağac-kol) yanğın təhlükəsizliyi qaydalarının pozulması ilə əlaqədar işlərin hərəkəti | | -//- | -//- | | -//- |
| 4.1. | İstintaq orqanları tərəfindən baxılmaq üçün qəbul olunmuş işlərin sayı | ədəd | -//- | -//- | x | -//- |
| 4.2. | Yanğınlardan dəyən zərərlə bağlı verilən işlərin sayı | -//- | -//- | -//- | x | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4.3. | Dəyən zərərə görə alınmış məbləğ | manat | -//- | -//- | x | -//- |
| 4.4. | İnzibati qaydada cərimələr qoyulan hadisələrin sayı | ədəd | -//- | -//- | x | -//- |
| 4.5. | İnzibati qaydada alınan cərimələrin məbləği | manat | -//- | -//- | x | -//- |
| 4.6. | İctimai təsir tədbirləri tətbiq olunması üçün verilən işlərin sayı | ədəd | -//- | -//- | x | -//- |
| IV. | Meşələrin mühafizəsi və meşə təsərrüfatı işlərinin aparılması | | illik | 7-mt nömrəli"Meşələrin mühafizəsi və meşə təsərrüfatı işlərinin aparılması barədə" hesabat | | Ölkə üzrə |
| 1. | Meşəqoruyucu tədbirlərin yerinə yetirilməsi | | -//- | -//- | | -//- |
| 1.1. | Bioloji metodlarla meşələrin ziyanvericilərdən və xəstəliklərdən qorunması | ha | -//- | -//- | 02401000 | -//- |
| 1.2. | o cümlədən biopreparatlarla aviamübarizə | -//- | -//- | -//- | -//- | -//- |
| 1.3 | yerüstü bioloji mübarizə | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | tədbirləri | | | | | |
| 1.4. | onlardan mikrobioloji | -//- | -//- | -//- | -//- | -//- |
| 1.5. | Aviakimyəvi mübarizə | -//- | -//- | -//- | -//- | -//- |
| 1.6. | Yerüstü kimyəvi mübarizə tədbirləri | -//- | -//- | -//- | -//- | -//- |
| 2. | Məhv edilmiş meşə əkinləri və başqa süni ağaclıqlar (cəmi, o cümlədən iynəyarpaqlılar) | ha | -//- | -//- | -//- | -//- |
| 2.1. | o cümlədən: | | | | | |
| | həşəratlar tərəfindən zədələnməsindən | -//- | -//- | -//- | -//- | -//- |
| 2.2. | heyvanlar tərəfindən zədələnməsindən | -//- | -//- | -//- | -//- | -//- |
| 2.3. | meşə xəstəliklərindən | -//- | -//- | -//- | -//- | -//- |
| 2.4. | antropogen amillərin təsirindən | ha | illik | 7-mt nömrəli“Meşələrin mühafizəsi və meşə təsərrüfatı işlərinin aparılması barədə” hesabat | -//- | Ölkə üzrə |
| 2.5. | onlardan sənaye tullantılarının təsirindən | -//- | -//- | -//- | -//- | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2.6. | Əlverişsiz hava şəraitinin təsirindən | -//- | -//- | -//- | -//- | -//- |
| 2.7. | Meşə yanğınlarından | -//- | -//- | -//- | -//- | -//- |
| 3. | Meşədə ziyanverici və xəstəliklərin mövcud olmasının mənbələri (yarpaq gəmiriciləri, digər meşə ziyanvericiləri, meşə xəstəlikləri) | | -//- | -//- | | -//- |
| 3.1. | İlin əvvəlinə mənbələrin ümumi sahəsi | ha | -//- | -//- | -//- | -//- |
| 3.2. | Yenidən əmələ gəlmiş | -//- | -//- | -//- | -//- | -//- |
| 3.3. | Mübarizə tədbirləri ilə ləğv edilmiş | -//- | -//- | -//- | -//- | -//- |
| 3.4. | İlin sonuna meşə ziyanverici və xəstəliklərinin mövcud olduğu sahə | -//- | -//- | -//- | -//- | -//- |
| 3.5. | o cümlədən mübarizə tədbirləri tələb edən sahə | -//- | -//- | -//- | -//- | -//- |
| 4. | Meşə təsərrüfatı işlərinin aparılması barədə | | -//- | -//- | | -//- |
| 4.1. | Meşə təsərrüfatı işlərinin faktiki qiymətlərlə dəyəri | min manat | -//- | -//- | x | -//- |
| 4.2. | o cümlədən öz qüvvəsi ilə yerinə yetirilmiş | -//- | -//- | -//- | x | -//- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | işlər | | | | | |
| 4.3. | Aviasiya ilə yanğından qorunan meşələrin sahəsi | min ha | -//- | -//- | x | -//- |
| 4.4. | Meşə quruluşu işləri | -//- | -//- | -//- | x | -//- |
| 4.5. | Abadlaşdırılmış yaşıl zonaların sahəsi | -//- | -//- | -//- | x | -//- |
| 4.6. | Xərclər | min manat | -//- | -//- | x | -//- |
| 4.7. | Traktorla görülmüş bütün işlərin şərti etalon hektara hesablanmış sahəsi | min ha | -//- | -//- | x | -//- |

## Mündəricat

Giriş ........................................................................................................................................ 1

Metodoloji izahlar........................................................................................................................ 2

Meşə resurslarının qorunması, təkrar istehsalı və onlardan istifadəyə dair kompleks statistik göstəricilər sistemi ..................................................... 3